Deloitte.

MAKING AN IMPACT THAT MATTERS since 1845





# Avqust ayı üçün kiber və texnologiya xəbərləri

## Azərbaycan

### Dövlət Xidməti 1-ci yarımildə 373 dövlət informasiya sistemində boşluq tapıb

2023-cü ilin 1-ci yarımilində Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) tərəfindən dövlət qurumlarında aparılan audit yoxlamaları və monitorinq nəticəsində 373 dövlət informasiya sistemində təhlükəsizlik boşluqları və nöqsanlar aşkar edilmiş, audit hesabatları hazırlanmış, bunların aradan qaldırılması üçün tövsiyələrlə bərabər müvafiq qurumlara təqdim edilmişdir.

Mənbə: scis.gov.az 3 Avqust 2023

### Kibermakanda saxta xəbərlərlə mübarizə üzrə təlimlərə start verilir

Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası (AKTA) tərəfindən cari ilin sentyabr ayı ərzində jurnalistlər və media nümayəndələri üçün “Kibermakanda saxta xəbərlərlə mübarizə” adlı təlim proqramı həyata keçiriləcək. AKTA bildirib ki, dörd həftə davam edəcək təlimlərin əsas məqsədi media nümayəndələri arasında saxta xəbər konsepsiyası və onlara qarşı mübarizə sahəsində

maarifləndirmənin aparılması, saxta xəbərlərin qarşısının alınması ilə əlaqədar media nümayəndələrinin iştirakının təşviq edilməsi və dəstəklənməsidir.

Mənbə: akta.az 11 Avqust 2023

## Azərbaycanda informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik riskləri reyestri yaradılacaq

Belə reyestrin yaradılması haqqında məlumat Prezident İlham Əliyevin təsdiqlədiyi "İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023–2027-ci illər üçün Strategiyası"nda öz əksini tapıb. Bundan başqa, Strategiyanın əhatə etdiyi dövr ərzində fərdi məlumatların mühafizəsinin gücləndirilməsi, informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik ekosisteminin formalaşdırılması və kritik informasiya infrastrukturu obyektlərinin təhlükəsizliyinin təmini kimi çoxlu hədəflərə nail olunması nəzərdə tutulur.

Mənbə: xeberler.az 28 Avqust 2023

## Müharibə şəraitində kritik informasiya infrastrukturlarının təhlükəsizliyi ilə bağlı təşkilati əsaslar yaradılacaq

Fövqəladə hallarda, müharibə şəraitində kritik informasiya infrastrukturlarının təhlükəsizliyini və idarə olunmasını təmin etmək üçün təşkilati əsaslar yaradılacaq, risklərin qiymətləndirilməsi və idarə olunması üçün plan hazırlanacaq. Qeyd olunan fəaliyyətlərin həyata keçirilməsində əsas icraçı qurum Dövlət Təhlükəsizliyi Xidmətidir(DTX).

Mənbə: xeberler.az 28 Avqust 2023

## İnformasiya təhlükəsizliyinin süni intellekt əsaslı həlləri işlənib hazırlanacaq

İnformasiya təhlükəsizliyi üzrə yarana biləcək təhdidlərin və risklərin əvvəlcədən müəyyən etmək və görülməli tədbirləri proqnozlaşdırmaq məqsədilə süni intellekt əsaslı həllər işlənib hazırlanacaq. Təsidqlənmiş informasiya və kiber təhlükəsizlik strategiyasına əsasən, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, 2023-2027-ci illər ərzində, Dövlət Təhlükəsizliyi Xidməti, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Elm və Təhsil Nazirliyi ilə birgə sahə üzrə müasir texnologiya və həllərin tədqiq edilməsini, tətbiq sahələrinin öyrənilməsini, süni intellekt əsaslı həllərin işlənib hazırlanması və tətbiq edilməsini təmin etməlidir.

Mənbə: xeberler.az 28 Avqust 2023

## İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizliklə bağlı məsləhətləşmə platformaları yaradılacaq

Yeni təsdiq olunmuş strategiyaya əsasən, XRİTDX, DTX, Daxili İşlər Nazirliyi və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birgə 2023 – 2024-cü illər ərzində informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində dövlət-özəl koordinasiya və məsləhətləşmə platformalarını yaradacaq və əməkdaşlığın

müxtəlif formalarının effektivliyinin araşdırılmasını, uyğun əməkdaşlıq formalarının seçilməsini, əməkdaşlığın hüquqi əsasının yaradılmasını, müntəzəm olaraq isə təhdidlər, boşluqlar, risklər və s. məlumatların əldə edilməsi və toplanmasının təşkilini, əldə edilən məlumatların bölüşdürülməsi və erkən xəbərvermə mexanizmlərinin yaradılmasını, mexanizmlərin avtomatlaşdırılması imkanlarının genişləndirilməsini təmin edəcəkdir.

Mənbə: apa.az 28 Avqust 2023

# Qazaxıstan

## Kibercinayətkar qrup qazaxıstanlıların hesablarından 65 milyon tenge oğurlayıb

Polisin məlumatına görə, araşdırmanın başlanğıcı internet dələduzluğunun qurbanı olan və 4 milyon təngə itirən şəhər sakininin ifadəsi olub. Naməlum nömrədən zəng vuran "bankirlər" vətəndaşın maliyyə hesablarına mümkün hücum barədə məlumat verərək, pula qənaət etmək üçün ondan telefonunda bir neçə onlayn əməliyyat aparmasını istəyiblər. Belə ki, zərərçəkmiş sakin iki ayrı kredit götürərək onları dələduzların "təhlükəsiz" hesablarına köçürüb.

Görülən bir sıra əməliyyat tədbirlərinin nəticəsində məlum olub ki, cinayəti bütün ölkə ərazisində fəaliyyət göstərən bir dələduz dəstə törədib.

Mənbə: profit.kz 3 Avqust 2023

## Qazaxıstan Respublikası Xarici İşlər Nazirliyinin konsulluq xidmətləri üçün yeni informasiya sistemi təqdim edilib

Qazaxıstan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Miqrasiya Komitəsi, etnik qazaxlara status təyin edilməsi və xaricdə olan Qazaxıstan Respublikası Xarici İşlər Nazirliyinin konsulluq xidmətlərinin nümayəndələri üçün "Ata Zholy" kartının (ölkədə çatışmayan ixtisaslara malik etnik qazaxlara verilən xüsusi sənəd) verilməsi üçün "Kandas" adlı avtomatlaşdırılmış məlumat sistemini təqdim edib.

Mənbə: kazpravda.kz 24 Avqust 2023

# Özbəkistan

## Özbəkistan açıq məlumatların dünya reytinqində yüksəlib

Özbəkistan, "Open Data Inventory (ODIN)" reytinqinə əsasən, bu il 70 bal toplayıb və dünya üzrə 30-cu yerə yüksəlib. Bu göstərici ölkədə açıqlıq sahəsində aparılan islahatları əyani şəkildə göstərir. "Open Data Inventory" reytinqində bütövlükdə 195 ölkə qiymətləndirilib.

Mənbə: uzdaily.uz 9 Avqust 2023

deloitte.az

Deloitte adı Deloitte Touche Tohmatsu Limited şəbəkəsinə daxil olan üzv şirkətlərdən birinə və ya bir neçəsinə və əlaqədar müəssisələrinə aid ola bilər. DTTL ("Deloitte Qlobal") və bu şəbəkəyə daxil olan hər bir üzv şirkət ayrı-ayrılıqda hüquqi şəxslər və müstəqil müəssisələrdir. DTTL müştərilərə xidmətlər göstərmir. Ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.

Deloitte qlobal səviyyədə audit və əminlik, konsaltinq, maliyyə, risk, vergi üzrə məsləhət xidməti və digər əlaqədar xidmətlər göstərən aparıcı markalardandır. 150-dən çox ölkədə və ərazidə xidmətlər göstərən üzv şirkətlər şəbəkəsi Fortune Global 500® üzrə beş şirkətdən dördünə öz xidmətlərini göstərir. Deloitte-un təxminən 415,000 peşəkar mütəxəssisinin təklif etdiyi fərq yaradan həllər haqqında ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.

Bu məlumatda yalnız ümumi informasiya əks olunur və Deloitte Touche Tohmatsu Limited şirkətlərindən, onun üzv şirkətlərindən və ya əlaqədar müəssisələrdən (birlikdə "Deloitte Şəbəkəsi") hər hansı biri bu məlumat vasitəsilə peşəkar məsləhətləşmə və ya xidmətlər təmin etmir. Maliyyə fəaliyyətinizə və ya müəssisənizə təsir göstərə biləcək hər hansı qərarlar qəbul etməzdən və ya tədbirlər görməzdən əvvəl peşəkar mütəxəssis ilə məsləhətləşmək daha məqsədəuyğundur. Deloitte Şəbəkəsinə daxil olan heç bir müəssisə bu məlumata istinad edən hər hansı şəxsin məruz qaldığı zərərə görə məsuliyyət daşımır.

8 Noyabr pr. 25E, Bakı Ağ Şəhər Ofis Binası
Bakı, AZ1025, Azərbaycan Respublikası

© 2023 Deloitte & Touche MMAC. Bütün hüquqlar qorunur.